# “AZƏRENERJİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

31 dekabr 2017-ci il tarixinə bitən il üzrə
Konsolidə edilmiş **Maliyyə Hesabatları**

Deloitte & Touche MMAC
Bakı Ağ Şəhər Ofis Binası
Nobel pros. 25E, Bakı, AZ1025
Azərbaycan
Tel:  +994 (12) 404 12 10
Faks: +994 (12) 404 12 11
deloitte.az

Deloitte.

**MÜSTƏQİL AUDİTOR RƏYİ**

"AZƏRENERJİ" Açıq Səhmdar Cəmiyyətinin Rəhbərliyinə:

*Rəy*

Biz "AZƏRENERJİ" Açıq S əhmdar Cəmiyyəti və onun törəmə müəssisələrinin (birlikdə-"Qrup") 31 dekabr 2017-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixə bitən il üzrə konsolidə edilmiş mənfəət və ya zərər və digər məcmu gəlirlər haqqında, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı və digər izahlı qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini yerinə yetirdik.

Fikrimizcə, konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər Qrupun 31 dekabr 2017-ci il tarixinə olan konsolidə olunmuş maliyyə vəziyyətini və həmin tarixə bitən il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlara müvafiq olaraq düzgün əks etdirir.

*Rəyin əsasları*

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq yerinə yetirdik. Həmin standartlar üzrə məsuliyyətimiz hesabatımızın *Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının ("İESBA") Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("İESBA Code")* uyğun olaraq Qrupdan müstəqil şəkildə fəaliyyət göstəririk və digər etika öhdəliklərimizi İESBA Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

*Konsolidə edilmiş maliyyə hesabatları üzrə rəhbərliliyin və idarəetmə səlahiyyətləri olan şəxslərin məsuliyyəti*

Rəhbərlik hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-larına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də saxtakarlıq, yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik Qrupu ləğv etmək və ya əməliyyatları dayandırmaq niyyətində olmayanadək və ya bunu etməkdən başqa real alternativi olmayanadək, Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, uyğun olduqda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri olan şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

*Konsolidə edilmiş maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti*

Məqsədimiz ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarının saxtakarlıq və ya səhvlər nəticəsində yarana biləcək mühüm təhriflərdən azad olması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə birləşdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS əsasında aparılan auditin) hər zaman bütün mühüm və mövcud olan səhvləri (əgər varsa aşkar edəcəyinə zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhv nəticəsində yarana bilər və ayrı-ayrılıqda və ya birlikdə, istifadəçilərin hazırkı konsolidə edilmiş maliyyə hesabatları əsasında verdiyi iqtisadi qərarlara əsaslı şəkildə təsir etməsi gözlənildikdə əhəmiyyətli hesab edilir.
BAS əsasında aparılan auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mühakimələr yürüdür və peşəkar skeptisizmi qoruyub saxlayırıq. Həmçinin biz:

Deloitte, "Deloitte Touche Tohmatsu Limited" (DTTL) Böyük Britaniyada təsis edilmiş, məhdud qarantiyada məsuliyyətli özəl cəmiyyətin birinə və yaxud bir neçəsinə, ona üzv şirkətlər şəbəkəsinə, və onlarla əlaqəli müəssisələrə şamil edilir. DTTL və ona üzv şirkətlər hüquqi cəhətdən bir-birindən ayrı və müstəqil şırkətlərdir. DTTL (həmçinin "Deloitte Global" adlanan) müştərilərə xidmətlər göstərmir. DTTL və ona üzv şirkətlər haqqında daha ətraflı məlumatı www.deloitte.com/about linkindən əldə edə bilərsiniz.

© 2018 Deloitte & Touche MMC. Bütün hüquqlar qorunur.

- Konsolidə edilmiş maliyyə hesabatlarının saxtakarlıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərin aradan qaldırılması üçün audit prosedurlarını planlaşdırıb yerinə yetirir və rəyimizin əsasını təşkil edəcək yetərli və uyğun audit sübutu əldə edirik. Saxtakarlıq nəticəsində yaranan əhəmiyyətli səhvlərin aşkar olunmaması riski səhv nəticəsində yarananlardan daha yüksəkdir, belə ki, saxtakarlığa gizli sövdələşmə, dələduzluq, qəsdən buraxılmış səhvlər, məlumatların təhrif olunması və ya daxili nəzarətlərə əməl etməmək kimi fəaliyyətlər daxil ola bilər.
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy ifadə etmək üçün deyil, şəraitə uyğun audit prosedurlarının planlaşdırılması məqsədilə auditlə əlaqəli daxili nəzarət barədə anlayış əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə olunan mühasibat uçotu qaydalarının uyğunluğunu, habelə yerinə yetirilən mühasibat qiymətləndirmələrinin və aidiyyatı açıqlamaların düzgünlüyünü qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipindən rəhbərliyin uyğun şəkildə istifadə etməsi və əldə olunmuş audit sübutu əsasında gələcəkdə Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə mühüm şübhə yarada bilən hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə qərar veririk. Biz mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldikdə, audit hesabatımızda maliyyə hesabatlarının müvafiq açıqlamalarına diqqət yetirməli və ya belə açıqlamalar kifayət olmadıqda rəyimizə düzəliş etməliyik. Nəticələrimiz audit hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisələr və şəraitlər Qrupun öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etməməsinə gətirib çıxara bilər.
- Konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu, tərkibini, habelə açıqlamaları və konsolidə edilmiş maliyyə hesabatlarının mühüm əməliyyat və hadisələri ədalətli şəkildə əks etdirib-etdirməməsini qiymətləndiririk.
- Kondolidə edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrupa daxil olan müəsssisələrin maliyyə məlumatları və fəaliyyəti ilə bağlı kifayət qədər audit sübutlarını əldə edirik. Biz qrup auditinin yönəldilməsi, nəzarət edilməsi və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz audit rəyinə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış əhatə dairəsi və müddəti, audit üzrə aşkar olunan mühüm nəticələr, habelə audit zamanı daxili nəzarət sahəsində aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

5 aprel 2018-ci il

Azərbaycan Respublikası, Bakı şəhəri

## 31 DEKABR 2017-Cİ İL TARİXİN BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ MƏCMU MƏNFƏƏT HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
***(min Azərbaycan manatı ilə)***

| | 2017 | 2016 |
|---|---|---|
| GƏLİR | | |
| Enerji satışı | 1,010,337 | 807,170 |
| Elektrik şəbəkəsinə qoşulma xidməti və digər satış gəlirləri | 2,999 | 2,991 |
| | **1,013,336** | **810,161** |
| XƏRCLƏR | | |
| Yanacaq | (647,584) | (371,019) |
| Köhnəlmə və amortizasiya | (183,136) | (152,895) |
| Əmək haqqı xərcləri | (42,066) | (41,623) |
| Təmir və texniki xidmət | (72,757) | (22,259) |
| Gəlir vergisindən başqa digər vergilər | (11,826) | (21,571) |
| Xammal və materiallar | (14,078) | (11,878) |
| Alınmış enerji | (8,114) | (8,338) |
| Kreditlərin və debitor borclarındəyərsizləşməsi ehtiyatında dəyişiklik | 141,166 | (7,468) |
| Digər | (38,506) | (29,053) |
| *Əməliyyat mənfəəti* | **136,435** | **144,057** |
| Maliyyə xərcləri, xalis | (44,206) | (41,082) |
| Xarici valyuta mübadiləsindən zərər, xalis | (16,737) | (220,145) |
| Kreditor borcların silinməsindən gəlir | 137 | 3,308 |
| Əmlak, tikili, avadanlıq və əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə itkisi | (599,050) | (23,841) |
| *Mənfəət vergisindən əvvəl zərər* | (523,421) | (137,703) |
| Mənfəət vergisi (zərəri)/gəliri | (79,452) | 28,775 |
| *İl üzrə zərər* | (602,873) | (108,928) |
| **İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR** | **(602,873)** | **(108,928)** |

**“AZƏRENERJİ” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ**

**31 DEKABR 2017-Cİ İL Ə TARİXİN MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
***(min Azərbaycan manatı ilə)***

| | 31 dekabr 2017-ci il | 31 dekabr 2016-cı il (*yenidən təsnif edilmiş) |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 2,711,173 | 3,355,081 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 46,864 | 8,734 |
| Təxirə salınmış vergi aktivləri | 223,929 | 335,486 |
| Digər uzunmüddətli aktivlər | 22,208 | 11,156 |
| *Cəmi uzunmüddətli aktivlər* | 3,004,174 | 3,710,457 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 92,849 | 54,323 |
| Büdcədən tələb edilə bilən ƏDV | 332,567 | 325,027 |
| Verilmiş kreditlər və debitor borcları | 25,730 | 120,683 |
| Avans ödənişlər | 49,269 | 7,617 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 148,335 | 79,750 |
| *Cəmi qısamüddətli aktivlər* | 648,750 | 587,400 |
| **CƏMİ AKTİVLƏR** | **3,652,924** | **4,297,857** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 1,760,495 | 1,760,495 |
| Əlavə ödənilmiş kapital | 1,383,003 | 1,202,645 |
| Yığılmış zərər | (2,123,260) | (1,521,614) |
| *Cəmi kapital* | 1,020,238 | 1,441,526 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, uzunmüddətli hissəsi | 1,594,745 | 1,846,195 |
| Dövlət subsidiyaları | 107,046 | 114,515 |
| Təxirə salınmış vergi öhdəliyi | 39,530 | 72,541 |
| Aktivlərin ləğv olunması üzrə öhdəliklər | 35,420 | 33,852 |
| Ticarət və digər kreditor borcları, uzunmüddətli hissəsi | 1,495 | 1,825 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 1,778,236 | 2,068,928 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Kreditlər və borc vəsaitləri, qısamüddətli hissəsi | 356,159 | 308,239 |
| Ticarət və digər kreditor borcları, qısamüddətli hissəsi | 468,976 | 410,233 |
| Cari mənfəət vergisi öhdəliyi | 1,517 | 763 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 27,798 | 68,168 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 854,450 | 787,403 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 2,632,686 | 2,856,331 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **3,652,924** | **4,297,857** |

## 31 DEKABR 2017-Cİ İL TARİXİN BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

*(min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Əlavə ödənilmiş kapital | Yığılmış zərər | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2016-cı il tarixinə qalıq** | **1,760,495** | **549,167** | **(1,550,428)** | **759,234** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (108,928) | (108,928) |
| Azərişıq ASC-yə verilmiş aktivlərin dəyəri | - | - | (38,133) | (38,133) |
| Vergi öhdəliklərinin silinməsi | - | - | 175,875 | 175,875 |
| Əlavə ödənilmiş kapital | - | 653,478 | | 653,478 |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | **1,760,495** | **1,202,645** | **(1,521,614)** | **1,441,526** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (602,873) | (602,873) |
| Vergi borclarının silinməsi | - | - | 1,227 | 1,227 |
| Əlavə ödənilmiş kapital | - | 180,358 | - | 180,358 |
| **31 dekabr 2017-ci il tarixinə qalıq** | **1,760,495** | **1,383,003** | **(2,123,260)** | **1,020,238** |

## 31 DEKABR 2017-Cİ İL TARİXİN BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
*(min Azərbaycan manatı ilə)*

| | 2017 | 2016 |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| *İl üzrə zərər* | (602,873) | (108,928) |
| *Aşağıdakılara görə düzəlişlər:* | | |
| Mənfəət vergisi xərci / (gəliri) | 79,452 | (28,775) |
| Köhnəlmə və amortizasiya | 183,136 | 152,895 |
| Əmlak, tikili, avadanlıq və əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar üzrə dəyərsizləşmə itkisi | 599,050 | 23,841 |
| Verilmiş kreditlər və debitor borcları üzrə (dəyərsizləşmə itkisinin bərpası) / dəyərsizləşmə itkisi | (141,166) | 7,468 |
| Əmlak, tikili və avadanlığın silinməsindən zərər | 24,003 | 230 |
| Mal-materiallar üzrə dəyərsizləşmə itkisi / (dəyərsizləşmə itkisinin bərpası) | 3,364 | (140) |
| Elektrik şəbəkəsinə qoşulma xidməti | (568) | (208) |
| Kreditor borcların silinməsindən gəlir | (137) | (3,308) |
| İl ərzində istifadə olunmuş aktivlərin ləğv olunması üzrə öhdəliklər | - | (3,846) |
| Xarici valyuta mübadiləsindən zərər, xalis | 16,737 | 220,145 |
| Maliyyə xərcləri, xalis | 44,206 | 41,082 |
| | 205,204 | 300,456 |
| *Dövriyyə kapitalındakı hərəkətlər:* | | |
| Mal-materiallarda artım | (52,289) | (13,339) |
| Büdcədən tələb edilə bilən ƏDV-də artım (i),(ii) | (31,929) | (38,527) |
| Verilmiş kreditlər və debitor borclarında artım (v) | (22,132) | (44,285) |
| Avans ödənişlərdə (artım)/azalma | (41,652) | 19,335 |
| Ticarət və digər kreditor borclarında artım / (azalma) (iv), (v) | 164,002 | (72,057) |
| Mənfəət vergisindən başqa digər vergi öhdəliklərində artım / (azalma) (i),(ii) | (7,398) | 23,677 |
| *Əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri* | 213,806 | 175,260 |
| Ödənilmiş mənfəət vergisi | (369) | (2,789) |
| Ödənilmiş faiz | - | (3,289) |
| **Əməliyyat fəaliyyəti üzrə əldə olunan xalis pul vəsaitləri** | **213,437** | **169,182** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlığın alınması | (150,694) | (72,311) |
| Digər uzunmüddətli aktivlərin alınması | - | (1) |
| **İnvestisiya fəaliyyətinə yönəldilən xalis pul vəsaitləri** | **(150,694)** | **(72,312)** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Borc vəsaitlərinin geri ödənilməsi (iv) | - | (388,307) |
| Dövlət subsidiyasının əldə edilməsi | 5,000 | - |
| Səhmdar tərəfindən əlavə ödənilmiş kapitala daxilolmalar | 942 | 366,600 |
| **Maliyyə fəaliyyətində əldə olunan / (istifadə olunan) xalis pul vəsaitləri** | **5,942** | **(21,707)** |
| **NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | **68,685** | **75,163** |
| **İLİN ƏVVƏLİNDƏ NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **79,750** | **3,924** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan nağd pul və pul vəsaitlərinin ekvivalentlərinin balans dəyərinə təsiri | (100) | 663 |
| **İLİN SONUNDA NAĞD PUL VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **148,335** | **79,750** |